

“Nəqliyyat texnikası və idarəetmə texnologiyaları” kafedrasının baş müəllimi

**Rüstəmbəyov Məsud Ənvər oğlu**

E-mail:
masud.rustambayov@aztu.edu.az

Məsud Ənvər oğlu Rüstəmbəyov 1956-cı il 16 fevralda Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Neftçala şəhərindəki 1 saylı orta məktəbdə 1963-1973-cü illərdə almışdır. O, 1973-cü ildə Azərbaycan Politexnik İnstitutun (indiki Azərbaycan Texniki Universiteti) Mexanika fakültəsinə daxil olmuşdur. İnstitutda oxuduğu müddətdə o dövrdəki ən yüksək Dövlət təqaüdünə – Lenin adına təqaüdə layiq görülmüşdür. 1978-cı ildə İnstitutu fərqlənmə diplomu ilə bitirərək, "Avtomobil və avtomobil təsərrüfatı" üzrə mühəndis - mexanik ixtisası almışdır .

1978-ci ildə təyinatla Azərbaycan Avtomobil Nazirliyin Mərkəzi Konstruktor Texniki Normativ Tədqiqat Bürosunda işə qəbul olunmuşdur. 1979-cu ildə Moskva şəhərində Moskva Avtomobil və Yolları İnstitutunun (indiki Dövlət Texniki Universiteti ) "Daxili yanma mühərrikləri" kafedrasına məqsədli ayəni aspiranturaya daxil olmuşdur və 1981-ci ildə təhsilini Azərbaycan Politexnik İnstitutun "İstilik texnikası " kafedrasında davam etdirmişdir. 1982-cı ildən kafedrada Baş laborant vəzifəsində çalışmışdır.

O, 1984-ci ildə AzTU-nun "Avtomobil və avtomobil təsərrüfatı" kafedrasında assistent kimi pedaqoji fəaliyyətə başlamış və 2000-ci ildən "Avtomobil nəqliyyat vasitələri" kafedrasında baş müəllim vəzifəsini tutmuşdur. 2017-ci ildən “Avtomobil texnikası” və sonra "Nəqliyyat texnikası və idarəetmə texnologiyaları" kafedrasında bu vəzifəsini davam etdirir.

Məsud m. Moskva şəhərində, DTU-nin "Daxili yanma mühərrikləri" kafedrasında "Qığılcım ilə işləyən mühərriklərin A-76 oktan ədədli benzinin metiltretbutil spirti ilə qarışığının tədqiqi" mövzusunda elmi iş üzərində işləyib və sonradan AzTU-da "İstilik texnikası" kafedrasında "Qazların mayeyə diffuziyası" mövzusunda elmi işi üzərində çalışıb.

Hər iki elmi işə aid məqalələr dərc olunub .

O, 2000-ci ildən "Avtoservisin texnologiyası və təşkili" fənnindən 20 il mühazirə oxuyub.

M.Ə .Rüstəmbəyov Azərbaycanda olan bütün avtoservislərlə sıx əməkdaşlıq edir, təlimlər keçib və dəfələrlə sertifikatlar ilə təltif olunub.

1989-cu ildə Moskva şəhərdə DTU-də 4 aylıq Müəllimlərin təkmilləşmə kursunu keçib və fərqlənmə diplomu ilə bitirib. Kurs, əsasən ixtisas fənlərin metodikası və tədrisin psixologiyasına aid idi .